*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 412-420*

https://doi.org/10.62837/2026.4.412

**UOT: 821.111(73)**

**f.f.d., dos. HÜSEYNLİ GİLƏ MEHDİ QIZI**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0002-1754-865X**
**gila.huseynli@adu.edu.az**

# DEYV EQQERSİN "ÇƏNBƏR" ƏSƏRİNDƏ TƏRBİYƏ ROMANININ POSTHUMANİST TRANSFORMASİYASI

**Xülasə**

Məqalədə Deyv Eqqersin "Çənbər" romanı transhumanizm, posthumanizm və anti-bildunqsroman kontekstində təhlil olunur. Təhlillər göstərir ki, texnoloji inkişafın vəd etdiyi şəffaflıq, demokratikləşmə və bərabərlik ideyaları əslində fərdi azadlıqların məhdudlaşdırılması və nəzarət mexanizmlərinin güclənməsi ilə nəticələnir. Romandakı Mey Holland obrazı vasitəsilə klassik tərbiyə romanına xas olan özünüdərk və mənəvi yetkinləşmə prosesi deformasiyaya uğrayaraq fərdin sistemə inteqrasiyası və identikliyini itirməsi ilə əvəz olunur. Məqalədə M.Fuko, M.Baxtin və D. Xarauey kimi nəzəriyyəçilərin mülahizələri əsasında qəhrəmanın panoptik nəzarət, performativ kimlik və posthuman transformasiya şəraitində "formalaşması" izah edilir. Nəticədə romanın texnoloji utopiyaların arxasında gizlənən distopik reallığı və müasir insanın mənəvi böhranını əks etdirdiyi əsaslandırılır.

**Açar sözlər:** transhumanizm, posthumanizm, anti-bildunqsroman, rəqəmsal nəzarət, kimlik böhranı, texnoloji distopiya

**Ключевые слова:** трансгуманизм, постгуманизм, анти-билдунгсроман, цифровое наблюдение, кризис идентичности, технологическая антиутопия

**Key words:** transhumanism, posthumanism, anti-bildungsroman, digital surveillance, identity crisis, technological dystopia

Müasir dövrdə rəqəmsal texnologiyaların, sosial şəbəkələrin, gündən-günə inkişaf edən süni intellekt alətlərinin insanın həyatına daxil olması humanitar fikirdə əxlaq, vicdan, sosial məsuliyyət kimi insana xas xüsusiyyətlərin rolu ilə bağlı sualları aktuallaşdırır. Məlumdur ki, XVIII əsrin II yarısından başlayaraq təkanını bir-birindən alan sənaye inqilablarının baş verməsi texnokratik eranın başlayacağının xəbərdarlığını edirdi. 1760-1840-cı illərdə baş verən Birinci Sənaye İnqilabı zamanı dəmir yolları tikildi, buxar maşınları tədavülə buraxıldı. XIX əsrin sonu-XX əsrin əvvəllərində baş verən İkinci Sənaye İnqilabı nəticəsində elektrik və konveyer üsulu kəşf edildi, istehsal bumuna start verildi. Üçüncü Sənaye İnqilabı ötən əsrin 80-ci

illərində kompüterlərin, 90-cı illərdə isə internetin təkanverici qüvvəsiylə yayıldığı üçün bu inqilabı kompüter inqilabı, yaxud rəqəmsal inqilab da adlandırırlar.

Bu gün artıq içində olduğumuz Dördüncü Sənaye İnqilabı özündən əvvəlki rəqəmsal yeniliklərin radikal və üst səviyyəsi kimi görünür. Belə ki, Massaçusets Texnologiya İnstitutunun professorları Erik Brinolfson və Endryu Makafi 2014-cü ildə çap edilən eyniadlı kitablarında bu yeni dövrü "İkinci maşın epoxası" [1] kimi adlandırırlar.

Bugünkü zaman kəsiyində texnologiya beynimizə yeridilməyə, genetik xəritəmizə müdaxilə etməyə, varlığımızın mahiyyətini dəyişdirməyə iddialıdır. Bu baxımdan insanın texnologiya vasitəsilə dəyişdirilməsi ideyası fəlsəfi müstəvidə yeni istiqamətlərin formalaşmasına səbəb olur. Humanitar fikirdə ən çox istinad edilən anlayışlardan olan transhumanizm mahiyyətcə humanizmin davamı olsa da transhumanistlər biologiyanı, insan bədəninin sərhədlərini qəbul etmir, fatalizmə qarşı çıxırlar. Transhumanizm texnologiyadan istifadə etməklə insanın bioloji, əqli, intellektual sərhədlərini ötüb keçməsini, dünyadakı bütün xəstəlikləri sonlandırmaqla ölümsüzlüyə çatmağı hədəfləyən radikal, lakin optimist dünyagörüşüdür. Posthumanizm isə transhumanizmin təkamül ideyasına tənqidi yanaşır. Posthumanistlərin fikrincə, insanı vasitəyə çevirmək onu dəyərsizləşdirməklə bərabər sosial siniflər arasındakı ziddiyyətləri artıra bilər. Transhumanizmin ideoloji əsasları özlüyündə "təklik" anlayışını ortaya çıxarır. Bu anlayışa əsasən 50 il ərzində texnologiya elə həddə çatacaq ki, insan bəşəri varlıq kimi başqa mərhələyə keçəcək və bənzərsiz olacaq. Amerikalı futurist Reymond Kurzveyl bunu belə izah edir: "İnformasiya mübadiləsi, bacarıq, şəxsiyyət və s. kimi insan var edən xüsusiyyətlərin kompüter gücü ilə əvəzlənməsi sayəsində düşünmək, fikir yürütmək, münasibət qurmaq kimi bacarıqlarımız yeni formalar qazanacaq. İnsan və maşının sintezi süni intellekt, genetik tədqiqatlar, nanotexnologiya sahəsindəki yeniliklərlə çulğalaşaraq biologiya ilə texnika, eləcə də real və virtual gerçəklik arasındakı sərhədləri getdikcə aradan qaldıracaq. Bu texnoloji inqilablar insan bədəninin mövcud məhdudiyyətlərini aşmağa imkan verəcək və bəşəriyyətin yenidən formalaşmasında köklü irəliləyişlərə yol açacaq" [8, s.178].

Posthumanistlər isə transhumanistlərə zidd olaraq insan şüurunu heç bir bioloji, cismani təmələ ehtiyacı olmayan fenomen kimi qəbul edirlər. Posthumanistlərə görə, informasiya onun fiziki inikasından daha vacibdir. Nensi Ketrin Heyls kimi posthumanist düşüncə sahibləri belə fikirdədirlər ki, insan informasiya emal edən maşınlardan biridir. O, informasiyanın insan bədənindən daha imtiyazlı, daha əhəmiyyətli hala gəlməsini "posthuman vəziyyət" [6, s. 247] adlandırır.

Sözügedən mübahisənin digər cinahına bio-mühafizəkarlar aiddir. Onlara görə, texnologiyaya hədsiz meyil, təkamül çılğınlığı insanı insan edən əsas faktoru – onun şəxsiyyətini və şərəfini təcrübə elementinə çevirir.

Ümumilikdə isə, bu mübahisələrin mərkəzində tibb sahəsindəki radikal qərarlar, insanın idrak potensialının süni intellekt alətləri vasitəsilə gücləndirilməsi, yaddaşın "bulud (cloud) sisteminə" köçürülməsi, depressiya, nevroz kimi hissi patologiyaların neyrotexnoloji müdaxilə ilə minimallaşdırması kimi məsələlər dayanır.

Tanınmış futuroloq və transhumanizmin demokratik qanadını təmsil edən Ceyms Hyuz "Kiborq vətəndaş: demokratik cəmiyyətlər gələcəyin yenidən yaradılmış insanına niyə cavab verməlidir" əsərində utopik gələcək təsəvvür edərək yazır ki, "Gərək biz texnologiyadan daha şəffaf və bərabərliyə əsaslanan dünya qurmaq üçün istifadə edək ki, ənənəvi demokratik cəmiyyətlər bu ideyaya dəstək versinlər" [7, s. 95].

Bu ideyalar fonunda texniki tərəqqinin ciddi etik və mənəvi təhlükələri bədii ədəbiyyatda da öz əksini tapır. Amerikalı yazıçı Deyv Eqqersin "Çənbər" romanı bəhs olunan texnoloji inkişafın müsbət tərəfləri ilə yanaşı, bəşəriyyətin mənəvi dünyasına mümkün təsirləri barədə xəbərdarlıq təbili çalır. Müəllif romanda transhumanizmin yalançı, saxta, psevdoutopik vədlərini təndiq edir, fərdlərin rəqəmsal sistemlər və mexanizmlər tərəfindən virtual nəzarətə məhkum edilərək özünəməxsusluqlarını və azadlıqlarını itirməsini, milyardlarla rəqəmsal məlumat toplusu içində informasiya parçasına çevrilməsini distopik şəkildə ifadə edir.

Roman 24 yaşlı Mey Hollandın tələbə yoldaşı Enni Allertonun köməyilə dünyanın ən güclü və prestijli informasiya texnologiyaları şirkəti sayılan "Çənbər"də Müştəri təcrübəsi şöbəsində işə qəbul olunması ilə başlayır. Şirkət "Üç müdrik" adlandırılan Eymon Beyli, Tom Stenton və Tay Qospodinov tərəfindən idarə olunur. Müəllifin şirkətin təsisçilərini xristianlıqdakı "Üç münəccim kral"a eyhamla "Üç müdrik adam" adlandırması təsadüf deyil. Yazıçı bununla transhumanizmi bir növ yeni din, yaxud texnoloji inanc kimi təyin və tənqid edir. İnsanın texnologiya vasitəsilə özünü Tanrının yerinə qoyaraq "hər şeyi görmək və bilmək" ehtirası, əslində, rəqəmsal tiranlıqla, virtual cəhənnəmlə nəticələnir.

Şirkətinin tanınması, geniş kütlələr arasında marağa səbəb olması Tay Qospodinovun kəşf etdiyi "Həqiqi sən" sistemilə həyata keçirilir. Sistemin mahiyyəti ondan ibarətdir ki, burada istifadəçilər bütün internet hesablarını, sosial şəbəkə profillərini, şəxsi şifrələrini və ödəniş məlumatlarını vahid kimlik altında birləşdirərək şəbəkədəki anonimliyi aradan qaldırırlar. Sonrakı mərhələdə Eymon Beyli dünyanın hər yerində asan yerləşdirilən, ucuz və fasiləsiz canlı yayım imkanı yaradan "Dəyişikliyi gör" kameralarını ictimaiyyətə təqdim edir. Beyli təqdimatında deyir ki, bu yeni texnologiya bəşəriyyətin hər şeyi biləcəyi "İkinci intibah" dövrünün başlamasına səbəb olacaq.

Şirkətin Kaliforniyada yerləşən mərkəzi binası, müasir ofisləri, arxitekturası, keçirilən əyləncəli yığıncaqlar, idman meydançaları, işçilərə təklif olunan ödənişsiz sağlamlıq paketləri Mey Hollanda yer üzündəki cənnət təsiri bağışlayır. Mey işində

uğur qazandıca şirkətdə məşhurlaşır və "İştirak xalı" adlanan mexanizmdə yuxarı pillələrə yüksəlmək üçün daha çox ekranlarda görünməyə çalışır. Meyin ənənəvi həyat tərzini, məxfiliyi, şəxsi həyatın məhrəmliyini müdafiə edən köhnə sevgilisi Mersi onun bu səthi, yüngül, sistem-mərkəzli yeni həyatını kəskin şəkildə tənqid edir.

Bir gecə icazəsiz şirkətin ərazisindən qayıq götürüb dənizdə üzən Mey kameralara düşür və bu hadisədən sonra şirkətin rəhbəri Beyli ilə ictamiyyətə açıq görüşdə "şəffaflaşmağı" qəbul edir. Beləliklə, Mey boynuna kamera taxaraq həyatının hər anını milyonlarla izləyiciyə canlı yayımlamağa başlayır. "Sirrlər yalandır", "Paylaşmaq dəyər verməkdir", "Məxfilik oğurluqdur" kimi bütün ideoloji şüarları mənimsəyən Mey bir növ şirkətin reklam üzünə çevrilir. Onun şirkətdə sürətli yüksəlişi ilə kölgədə qalan Enni özünü sübut etmək üçün insanların keçmişini və nəsil-şəcərə ağacını rəqəmsallaşdıran proqramda könüllü təcrübəçi olur. Ancaq proqram Enninin əcdadlarının kölə olduğunu aşkar etdikdə o, rəqəmsal bulinqə məruz qalır və nəticədə əsəb sarsıntısı keçirərək komaya düşür.

Meyin keçmiş sevgilisi Mersi izlənməkdən narahat olduğu üçün sistemdən tamamilə çıxaraq meşəyə qaçır. Mey yenicə istifadəyə verilən cinayətkarları tapmaq proqramının təqdimatında milyonlarla insanın köməyi ilə bir neçə saniyədə Mersinin yerini tapır. Dronların və kameraların müşayiətilə canlı yayımda təzyiqə məruz qalan Mersi təlaşla qaçmağa çalışarkən maşını ilə uçurumdan aşaraq ölür.

Mey şirkətin düşərgəsində heç kimin əslində kim olduğunu bilmədiyi Kalden adlı bir nəfərlə münasibətdə olur. Romanın sonunda məlum olur ki, Kalden elə şirkətin təsisçisi Taydır. Tay başa düşür ki, şirkət nəzarətdən çıxıb, "Tamamlanma" adlanan səsvermə proqramı ilə dövlətin belə səlahiyyətlərini ələ keçirərək radikal totalitar mexanizmə çevrilib. O, bu rəqəmsal totalitarizmi məhv etmək üçün Meydən kömək istəsə də, Mey şirkətin ideologiyasına şəksiz inandığından bu təklifi rədd edir və Tayı şirkətin digər təsisçilərinin yanında ifşa edir.

Romanın final səhnəsində Mey xəstəxanada Enninin yanında təsvir olunur. Baş verənlərdən peşmanlıq keçirməyən Mey əksinə rəfiqəsinin koma halındakı düşüncələrini oxuya bilməməyindən narahat olur. Roman Meyin Kaş yatmış, yaxud komaya düşmüş insanların fikrindən keçənləri, yuxularını oxuyub qeydə alan yeni texnologiya yarada bilək arzusu ilə bitir. "Bilməmək özünə və dünyaya bir həqarət, bir məhrumiyyətdir... Dünya bilgidən məhrum edilməməli, dünya gözlədilməməlidir" [3, s.387].

Romanda Meyin timsalında çağdaş texnoloji sistemin insanlardan öz kimliklərini arxa plana atmağı, fasiləsiz şəkildə ekranlarda olmağı tələb etdiyinin şahidi oluruq. Bu, daim özünü sosial mediada təsdiq etmək istəyən fərdlərdə sosial narahatlıq yaradır. Mey texnologiyalar əsrində virtual reallığı təmsil etdiyi halda, onun keçmiş sevgilisi Mersi fiziki, real dünyanı, təbiəti təmsil edir. Texnoloji xidmətlər müqabilində öz fərdiliyini, şəxsi həyatının məxfiliyini qurban verməkdən

imtina edən Mersi rəqəmsal dünyanın, informasiya texnologiyalarının yaratdığı simulyakra etiraz edir, insanı guya azad edən mexanizmlərin əslində onu asılı vəziyyətə saldığını bildirir.

Əsərdə bütün dünyanı şəffaf bir məkana çevirmək, hər yeri görmək və hər şeyə nəzarət etmək ehtirası insanların sərhədlərini məhv edən təhlükəli reallıq kimi təsbit edilir. Mersinin virtual bulinqin qurbanı kimi ölməsi əsərdə təsvir edilən distopik cəmiyyətdə totalitar, tiranik şəbəkədən kənarda qalmağın posthumanist erada qeyri-mümkünlüyünü, eyni zamanda, ağır nəticələrini göstərir.

Müəllifin romanda təsvir etdiyi mühit göstərir ki, informasiya texnologiyalarına əsaslanan yeni transhumanist ideologiya insan müstəqilliyini, onun özünəməxsus sərhədlərini ikinci plana atır, bununla da, fərdlərin öz mənliklərini məhv etdikləri posthumanist antiutopiyanın yaranmasına rəvac verir. "Çənbər" əsəri antiutopik roman olsa da bu janrda klassikaya çevrilmiş C. Oruelin "1984" romanından kəskin şəkildə fərqlənir. "1984" romanında insanlara fiziki zorakılıq, işkəncə yolu ilə nəzarətdən söhbət getdiyi halda "Çənbər"də nəzarət könüllü şəkildə həyata keçirilir. Oruelin romanında izlənmək təhdid altında olmaq deməkdirsə, Eqqersin romanında izlənmək fərqlənmək və tanınmaq üçün vasitə, göz önündə olmaq isə fəzilətdir.

Romanda məcburi şəffaflıq mifinə fərqli düşünən iki obrazın – Mey və Mersinin timsalında şahidlik edirik. Bu, individuallıq ilə dividuallıq arasındakı konfliktin göstəricisidir. Mey Holland öz mənliyini sistemə qurban verdikcə, real kimliyini virtual kimliyə dəyişdikcə fərdiliyini, individuallığını itirib dividual (bölünmüş, parçalanmış) olur. O, getdikcə həyatı həqiqi dəyərlərlə yox, alqoritmik xallarla ölçən, müəyyən mənada könüllü kiborqa çevrilir.

Romada texnoloji distopiya fonunda Mey Hollandın həyatının müəyyən hissəsinin verilməsi onun fərd kimi təkamül prosesini tamamlayıb, tamamlaya bilmədiyi ilə bağlı sual doğurur. Meyin keçdiyi yol klassik mənada yetkinləşmə, özünüdərk deyil, əksinə bu prosesin deformasiyaya uğradığının göstəricisidir. Romanda klassik tərbiyə romanının struktur elementlərinə sadiq qalınsa da, onların mahiyyəti radikal şəkildə dəyişir. Meyin sistem daxilində tədricən özünü "itirməsi", "təkamülünü" texnoloji sistemə tabe olması ilə tamamlaması romanı anti-bildunqsroman elementlərinə yaxınlaşdırır.

Məlum olduğu kimi, klassik bildunqsroman fərdin mürəkkəb, xaotik, yetkinləşməmiş dünyagörüşünü mərhələli şəkildə formalaşdırmasından, öz kimliyini, mənliyini tapmasından bəhs edir və bu zaman fərdin daxilən zənginləşmə, aydınlanma kimi məqsədyönlü hədəfi olur. "Çənbər" romanında isə Mey Hollandın bu cür ideal, işıqlı hədəfi yoxdur. Burada ənənəvi humanist inkişaf idealı öz yerini antiutopik şəffaflıq ehtirasına, alqoritmlərlə idarə olunmaq arzusuna verir. Meyin "təkamülü" Corc Lukaçın təsvir etdiyi problemli qəhrəman tipinin formalaşmasının son mərhələsi kimi də şərh oluna bilər [9, s.12]. Bu zaman fərd artıq dünyada öz

yerini tapmaq üçün deyil, mövcud sistem daxilində özünü itirmək istiqamətində inkişaf edir.

Romanın əvvəlində Meyin yeni mühitə daxil olması klassik tərbiyə romanındakı "ilk mərhələ"ni xatırladır. Lakin Mey üçün yeni iş yeri onun həyatın mənası kimi təqdim olunur: "Bu, gerçəkləşmiş arzu idi. O, həqiqətən də dünyada xüsusi əhəmiyyət kəsb edən şirkətdə işləyirdi" [3, s. 7].

Tərbiyə romanının mühüm xüsusiyyətlərindən biri qəhrəmanın təcrübə ilə formalaşmasıdır. Lakin "Çənbər" romanında Meyin formalaşması sistem tərəfindən yönləndirilir. Tədricən o, subyekt olmaqdan çıxaraq idarə edilən obyektə çevrilir. Bu, klassik bildunqsroman modelindəki özünü formalaşdırma prinsipinin institusional formalaşdırma ilə əvəz olunduğunu göstərir. Mişel Fukonun Ceremi Bentamın həbsxana modelindən götürdüyü "panoptikon" anlayışına əsasən fərd daima müşahidə altında olacağını bilsə də bu müşahidənin real olub-olmadığını dəqiq bilmir və nəticədə öz davranışını özü tənzimləməyə başlayır [4, s. 18]. Mey də izləndiyini bilir, özünü könüllü şəkildə ifşa edir və davranışlarını sistemə uyğunlaşdırır.

Bu mərhələdə qəhrəman artıq öz kimliyini müstəqil şəkildə formalaşdırmaq əvəzinə onu müəyyən qurumla əlaqələndirir, fərdi inkişafını, daxili axtarışlarını könüllü şəkildə texnologiyaya təslim edir, həqiqi kimlik yerinə virtual-süni kimliyə can atır. Klassik bildunqroman modelində fərd cəmiyyətə uyğunlaşaraq özünü tapdığı halda, burada fərd mövcud ideoloji sistemə daxil olur. Mişel Fukonun "intizam cəmiyyətləri" konsepsiyasına əsasən çağdaş dövrdə "fərd diskursiv və institusional güc mexanizmləri" [4, s. 7] vasitəsilə formalaşdırılır.

İlk baxışdan Mey Hollandın kariyera pillələri sürətlə çıxması Amerika cəmiyyətinə xas uğur hekayəsi, texnoloji əsrə aid bildunqsroman nümunəsi kimi görünsə də, əslində, romanda pillə-pillə fərdiyyətin, məhrəmliyin, məxfiliyin yeni texnoloji vasitələrlə sıradan çıxması göstərilir. Romandakı əsas problemlərdən biri kimliyin parçalanmasıdır. Meyin xarici və daxili "mən"i arasında kəskin ziddiyyət yaranır: "tam sakit görünürdü… amma beyninin içində hər şey xaos idi" [3, s. 257]. Əsərdən verilən sitat postmodern subyektin parçalanmış təbiətini aydın şəkildə göstərir. Mixail Baxtinin polifoniya nəzəriyyəsinə əsasən Meyin identikliyi müxtəlif diskursların toqquşma nöqtəsinə əsaslanır. O, sosial platformalarda müəyyən rol oynasa da bu rol onun daxili "mən"i ilə üst-üstə düşmür. Belə ki, fərdi qərarlar, şəxsi seçimlər texnologiyaya həvalə edildiyi halda fərdi təkümüldən, mənəvi inkişafdan söhbət gedə bilməz.

Romanda texnologiyanın təsiri altında qəhrəmanın özünüdərki dəyişir, o, artıq özünü başqalarının baxışı ilə dərk edir: "kimsə onun çantasını axtarırdı… o isə ümidsizcə baxırdı" [3, s. 262]. Bu, fərdi sərhədlərin yox olması ilə yanaşı, subyektin öz üzərində nəzarəti itirməsini də göstərir. M. Baxtinin xronotop nəzəriyyəsi

kontekstində subyekt artıq "daxili zaman"da deyil, ictimai və texnoloji zaman-məkanda mövcuddur.

Ənənəvi bildunqsroman qəhrəmanları mənən zənginləşməyə can atdıqları halda Mey anti-bildunqsroman qəhrəmanı kimi ancaq virtual təsdiq mexanizmlərinin, rəqəmsal tətbiqlərin əsirinə çevrilir. Meyin inkişafının növbəti mərhələsi onun texnoloji sistemlə tam identifikasiyasıdır: "bu, onun daha yaxşı, daha güclü versiyası idi… özünü daha qüvvətli hiss edirdi" [3, s. 263]. Bu, Meyin posthuman identikliyinin formalaşmasının göstəricidir. Donna Xaraueyin "kiborq manifesti"nə [5, s. 149] uyğun olaraq insan və texnologiya arasındakı sərhədlər silinir və yeni hibrid subyekt meydana çıxır. Klassik bildunqsromanın humanist əsasları bu mərhələdə artıq dağılır. Bütün cəhdlərinin yekununda Mey öz şəxsiyyətini, kimliyini rəqəmsal dünyada "Çənbər" şirkətinin prinsiplərinə qurban verir. Romanın ideoloji kulminasiyası Meyin etik seçimində üzə çıxır. Bu məqam klassik tərbiyə romanında gözlənilən etik inkişafın əksinə olaraq, etik refleksiyanın zəifləməsi ilə nəticələnir. Şirkətdə işə başlayandan sonra o fərd kimi təkamül göstərmir, daxili inkişaf tempini itirir, eləcə əməliyyat sistemlərinin versiyalarından biri kimi alqoritmik dataya çevrilir.

Mey Hollandın anti-təkamülü Fransisko Kollado-Rodrigezin Marşal Makluhana istinadən dediyi "narsistik keyləşmə" [2, s. 82] anlayışını yada salır. Çünki Mey getdikcə öz rəqəmsal "əkizinin" əsiri olur, onu öz həqiqi kimliyi zənn edir və eynilə "Nərgiz və Əks-səda" haqqındakı yunan mifindəki kimi öz əksində boğulmağa başlayır. Bu virtual özünə vurğunluq Mey Hollandın təkamülünü qeyri-mümkün edir. Sonda isə qəhrəman tam şəkildə sistemə təslim olur və beləliklə, romanın sonu klassik bildunqsromandakı sosial və mənəvi harmoniyanın əksinə fərdin özünü itirməsi ilə tamamlanır.

Nəticə etibarilə, Deyv Eqqersin "Çənbər" romanı texnoloji inkişafın insanın ontoloji və etik statusuna yönəlmiş ciddi təhlükə olduğunu göstərir. Əsər transhumanist ideologiyanın vəd etdiyi insan modelinin azadlıqları məhdudlaşdırılan və texnoloji sistemə tabe edilən mexanizmə çevrildiyini üzə çıxarır. Bu kontekstdə roman posthuman reallıqda identikliyin parçalanmış xarakter daşıdığını bildirir. Romanda klassik bildunqsromanın strukturu qismən qorusa da, onun semantik əsaslarını dağıdaraq fərdin özünü itirməsi ilə nəticələnən anti-bildunqsroman modelini təqdim edir. Mey Hollandın təkamülü sistemə uyğunlaşma üzərində qurulur. Beləliklə, əsər müasir rəqəmsal cəmiyyətin yaratdığı "şəffaflıq" ideologiyasının əslində yeni nəzarət və məhkumiyyət forması olduğunu açıq şəkildə göstərir. Bu baxımdan "Çənbər" romanı həm janr transformasiyasını, həm də insanın posthuman gələcəkdə qarşılaşacağı kimlik böhranını konseptual səviyyədə əks etdirir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Brynjolfsson E., McAfee A. The Second Machine Age: Work, Progress, and Prosperity in a Time of Brilliant Technologies. W. W. Norton & Company. 2014. 336 p.
2. Collado-Rodríguez, F. Patterns of Posthuman Numbness in Shirley & Gibson's "The Belonging Kind" and Egger's "The Circle". Universidad de Zaragoza. 2024. pp. 79-93
3. Eggers D. The Circle. NY: Alfred A. Knopf, 2013. 389 p. https://fliphtml5.com/ahory/vwtn/basic
4. Foucault M. Discipline and Punish: The Birth of the Prison. Trans. by Alan Sheridan. New York: Vintage Books, 1977. 353 p. URL: https://monoskop.org/images/4/43/Foucault_Michel_Discipline_and_Punish_The_Birth_of_the_Prison_1977_1995.pdf
5. Haraway D. Simians, Cyborgs, and Women: The Reinvention of Nature. New York: Routledge. 1991. 309 p. URL: https://monoskop.org/images/f/f3/Haraway_Donna_J_Simians_Cyborgs_and_Women_The_Reinvention_of_Nature.pdf
6. Hayles N.K. How We Became Posthuman: Virtual Bodies in Cybernetics, Literature, and Informatics. University of Chicago Press Journals. 1999. 364 p. URL: https://monoskop.org/images/5/50/Hayles_N_Katherine_How_We_Became_Posthuman_Virtual_Bodies_in_Cybernetics_Literature_and_Informatics.pdf
7. Hughes J. Citizen Cyborg: Why Democratic Societies Must Respond To The Redesigned Human Of The Future. Basic Books. 2004. 320 p.
8. Kurzweil R. The Singularity Is Nearer: When We Merge with AI. Viking. 2024. 432 p.
9. Lukacs G. The Theory of the Novel. Trans. by Anna Bostock. Cambridge, MA: MIT Press, 1971. 70 p. URL: https://analepsis.org/wp-content/uploads/2011/08/georg-lukacs-the-theory-of-the-novel.pdf

***Gila Mehdi Huseynli***

## SUMMARY
## THE POSTHUMANIST TRANSFORMATION OF THE BILDUNGSROMAN IN DAVE EGGERS' "THE CIRCLE"

This article analyzes Dave Eggers's novel "The Circle" in the context of transhumanism, posthumanism, and the anti-bildungsroman. The analysis demonstrates that the ideas of transparency, democratization, and equality promised by technological development actually lead to the restriction of individual freedoms

and the strengthening of control mechanisms. Through the character of Mae Holland, the process of self-awareness and moral maturation inherent in the classic bildungsroman is deformed and replaced by the integration of the individual into the system and the loss of identity. The article explains the “development” of the protagonist under conditions of panoptic control, performative identity, and posthumanist transformation, drawing on the insights of theorists such as M. Foucault, M.Bakhtin, and D.Haraway. It concludes that the novel reflects the dystopian reality hidden behind technological utopias and the moral crisis of modern humanity.

***Гила Мехди Хусейнли***

**РЕЗЮМЕ**

**ПОСТГУМАНИСТИЧЕСКАЯ ТРАНСФОРМАЦИЯ ОБРАЗОВАТЕЛЬНОГО РОМАНА В ПРОИЗВЕДЕНИИ ДЭЙВА ЭГГЕРСА «КРУГ»**

В статье анализируется роман Дэйва Эггерса «Круг» в контексте трансгуманизма, постгуманизма и анти-билдунгсромана. Анализ показывает, что идеи прозрачности, демократизации и равенства, обещанные технологическим развитием, на самом деле приводят к ограничению индивидуальных свобод и усилению механизмов контроля. Через образ Мэй Холланд в романе процесс самосознания и морального созревания, присущий классическому роману о воспитании, деформируется и заменяется интеграцией индивида в систему и потерей идентичности. В статье объясняется «формирование» героя в условиях паноптического контроля, перформативной идентичности и постгуманистической трансформации на основе соображений таких теоретиков, как М. Фуко, М. Бахтин и Д. Харауэй. В результате обосновывается, что роман отражает антиутопическую реальность, скрытую за технологическими утопиями, и моральный кризис современного человека.

***Rəyçi: fil.e.d., prof. Şahin Həbib oğlu Xəlilli***